

# Heydər Əliyev bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət etmişdir

**Bu gün – 3 sentyabr ulu öndər Heydər Əliyevin Moskvadan öz Vətəninə qayıtmasından sonra xalqın ona göstərdiyi ilk böyük etimadın növbəti ildönümüdür. Doğrudur, həmin tarixdən sonra Azərbaycan xalqı ona dəfələrlə etimad göstərmiş – deputatlar onu ölkənin ən ağır günlərində parlamentin sədri seçmiş, yaranmış siyasi böhranın qarşısının alınması məqsədilə prezidentin səlahiyyətlərinin icrası ona həvalə edilmiş, iki dəfə prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlmişdi. Ancaq milli tariximizdə 1990-cı il ilin 3 sentyabrı da xüsusilə qeyd edilməli günlərdən biridir.**

Çünki naxçıvanlı deputatlar fövqəladə sessiya çağıraraq onu Muxtar Respublika Ali Məclisinin sədri seçəndə hələ SSRİ də mövcud idi, hər addımda Heydər Əliyevə pislik etməyə çalışan Mixail Qorbaçov da hakimiyyətdə idi, istənilən tribunadan Heydər Əliyevin kölgəsini qılınclayan Azərbaycan iqtidarı da bu seçimin əleyhinə idi. Ancaq xalq başqa fikirdə idi. Xalq bilirdi ki, bu ölkənin gələcəyi məhz Heydər Əliyev siyasi dühası ilə bağlıdır.

Xalq onu sevir, inanır, o isə öz xalqına güvənirdi. Çünki Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Xatırladaq ki, 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. Həmin layihələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Bu dövlət xadiminin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə olunmuş nəticələri nəzərə alaraq, 1982-ci ildə Moskvaya dəvət olundu, yüksək vəzifəyə -- SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edildi.

O, həmin vəzifədə çalışanda da Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. Ancaq 1987-ci ildə -- onun vəzifədən getməsindən sonra xalqımız üçün ciddi problemlər yaranmağa başladı. Həmin istefadan iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, həmin məsələ əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev buna imkan vermirdi.

Xatırladaq ki, bu il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə geniş nitq söyləyən Prezident İlham Əliyev həmin günləri ən xırda detallarına qədər yada salmışdır: "Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili, demək, olar tam dəqiq və düzgün idi".

Kreml rəhbərliyinin Azərbaycan xalqına qarşı siyasi ayrı-seçkilik etməsini, respublika rəhbərliyinin isə həmin haqsızlıqlara cavab verə bilməməsini görən Heydər Əliyev 1990-cı ilin 20 Yanvar qırğınına adekvat cavab verən ilk siyasətçi və dövlət xadimi olmuşdu. Prezident İlham Əliyev həmin günləri məhz canlı şahid kimi xatırlayır: "Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət, əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır".

Sonra Heydər Əliyev Moskvadan Bakıya qayıtdı. Respublika rəhbərliyinin ona olan münasibəti Kremlin, Qorbaçovun münasibətindən heç də fərqli deyildi. Belə ki, ona Bakıda yaşamağı qadağan etdilər və Azərbaycanın inkişafının, tərəqqisinin hər səhifəsində izi olan görkəmli dövlət xadimi doğulub böyüdüyü Naxçıvana getdi. Yuxarıda qeyd etdiyimiz kimi, naxçıvanlılar fövqəladə sessiya çağıraraq onu Muxtar Respublika Ali Sovetinin sədri seçdilər. Bununla da, Azərbaycanın yeni tarixindəki uğurlar silsiləsinin təməli qoyuldu.

Prezident İlham Əliyev xatırladır ki, məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin -- ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında da qəbul edilsin. Bundan başqa, muxtar respublikanın adının "sovet" və "sosialist" sözlərindən təmizlənməsi də həmin günlərin ən cəsarətli addımlarından idi.

Qeyd etdiyimiz kimi, Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü . Məhz ulu öndərin qətiyyətli addımları nəticəsində müstəqil Azərbaycanın müstəqil həyatı başlandı. Onun ölkə prezidenti seçilməsindən sonra şəxsi təşəbbüsü ilə senzura ləğv edildi. Senzuranın ləğvi ulu öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi. Fərariliyin baş alıb getdiyi, nizamsız, ayrı-ayrı adamların marağına xidmət edən ordumuz, sözün həqiqi mənasında, Milli Ordu şəklində formalaşdırıldı. Hamının yadındadır ki, o vaxta qədər nizami ordu yox idi. Ən başlıcası, iqtisadi sahədə çox ciddi islahatlar aparıldı.

Qətiyyətlə deyə bilərik ki, bugünkü qüdrətli Azərbaycan dövlətini istənilən uğurunun təməlində məhz Heydər Əliyev siyasi uzaqgörənliyi dayanır. Gənc müstəqil dövlətimizin uğurları isə gündən-günə artmaqdadır. 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra Azərbaycan böyük inkişaf yolu keçib, müstəqillik daha da möhkəmlənib.

> ***Ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycanın bugünkü reallıqları ondan ibarətdir ki, ölkəmizdə sabitlik təmin olunub, beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmlənib. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsverməda özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan --Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Prezident İlham Əliyevin qətiyyəti, prinsipiallığı və mükəmməl idarəetməsi nəticəsində ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində böyük işlər görülüb. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 16 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıb. Dünya Bankının hesablamalarına görə, Azərbaycan bu göstərici üzrə dünya miqyasında 25-ci yerdədir.

Heydər Əliyevin siyasi müdrikliyinin nəticəsi olan və öz əlləri ilə təməlini qoyduğu Bakı –Tbilisi --Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Son illər, xüsusən, bu ilin əvvəlindən bəri həyata keçirilən irimiqyaslı sosial paketlər məhz həmin gəlirlər hesabına reallaşdırılır.

Heydər Əliyev siyasi kursunun təntənəsidir ki, bu gün Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Prezident İlham Əliyev həmin həqiqəti bu şəkildə dilə gətirir: "Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***